**OPEN MEDIA HUB**
Supporting media professionals across the EU Neighbourhood area

| | | | |
|---|---|---|---|
| STORY NAME: | Written victories, obliterated rights | | |
| | | | |
| COPYRIGHT HOLDER: | Turan İA / OPEN Media Hub | | |
| COPYRIGHT NOTICE: | Ownership of content belongs to Turan İA / OPEN Media Hub | | |
| USAGE TERMS: | Share & Adapt - Attribution 4.0 International (CC BY 4.0)<br>https://creativecommons.org/licenses/by/4.0/ | | |
| EDITOR'S NOTES: | *None* | | |
| SOURCE: | Turan İA - http://www.contact.az/ext/news/2019/-/free/Video/az/79217.htm | | |
| | **Open Media Hub – http://www.openmediahub.com**<br>*"This production was supported by OPEN Media Hub with funds provided by the European Union"* | | |
| LANGUAGE: | Azerbaijan | DURATION: | 00:18:00 |
| JOURNALIST: | İzolda Aghayeva | EMAIL: | |
| | | | |
| SLUGLINE: | Corruption & Investigation, Azerbaijan, corruption, journalists, bribe | | |
| HEADLINE: | The story of two victims of corruption in Azerbaijan highlighting the problems faced by them after revealing the wrongdoings. | | |
| DATELINE: | Baku, Azerbaijan – 01/03/2019 | | |
| | | | |
| SCRIPT: | Worker<br>00:15- 00:22<br>We also want our country to be know abroad. But how is that possible if we are starving here? They don't let us live, peaceful people are being suffocated. Some high-ranked authorities are not allowing people to live normal was. They make people like us to starve.<br>Worker<br>00:23-00:29<br>The patron of the "Azimport" Azar Asgarov and Ragif Qasımov said us it was our money which has been was spent for European Games.<br>Worker<br>00:39- 01:05<br>It's just a laundering of money. All these workers would be paid 300-400 thousand manats for their job in general. I'm a Karabakh war veteran myself. Do you see this? | | |

Film it. I risked my life there and got a bullet in my arm. Why they dont't pay our money? We are simple workers and they don't pay us for job.

Voice over

01:08- 01:34

Images from year 2015. Huge sport competition – First European Games were held in Azerbaijan in 2015. Despite state officials asserting 1 billion manats to be spend for "operational expenses" of these games, press claims its nearly about 5 billion manats though. According to press, expenses for inviting world famous artist Lady Gaga to opening ceremony have reached 2 million dollars.

Voice over

01:45- 02:04

Thereby Azerbaijan becomes first state ever to host European Games. But there were other important events happening at the same time in the capital of Aerbaijan – Baku. Laborers, working during preparations for European Games have gathered in the city center to demand a salary, which they didn't get for job.

02:05-02:11

Worker

Film this old man, film him. He has to get 56 thousands. He's been standing on the street and waiting for months.

02:12 -02:23 -02:30-02:41

Elshan Aliyev brigadier

They called us for construction work before European Games in 2015. Then our passports were gathered to sign a contract. They promised us a contract and good salary and we started to work. They gave us 3 months, but we finished in 1 months and 18 days. But at the time of payment they grinded us down for payment.

Voice over

02:42- 03:20

Elshan Aliyev has been a brigadier of 540 laborers during construction works before European Games. He's got a job request from "Azimport" (who got an offer from State Oil Company) to take part in constructuion works at "Shanghai" area of Bayil district. Press services of both companies have blaimed each other for late salary payment to workers. In his speech for "Meydan" TV, a year later, "Azimport" company's founder Azer Alasgarov declares his company has dealt in more than 700 projects together with SOCAR.

03:21- 03:28 Azar Asgarov Founder of Azimport

audio recording

We've been working on nearly 700 projects together with "Socar" and all of them were successful.

Elshan Aliyev brigadier

03:29- 03:48

| | |
|---|---|
| | As we finished the job, President and First lady came to see the place, we;ve seen the images on TV. We were so happy that they liked our work and foreign guests will visit Baku and see how beautiful it is. But how right is this, if simple workers are starving?<br>Voice over<br>03:49-04:27<br>Investigation on company's activity detecs no document or information regarding "Azimport" winning any tender to start a construction work at above stated Bayil area, though State Purchase Agency announced a competition for 2010-2015 years. Same investigation clears that one of unofficial owners of "Azimport" company is President's assistant on economical issues – Ali Asadov. No other action from appropriate structures regarding these facts has been taken further, also no information was given to public.<br>Intigam Aliyev human rights activist<br>04:28-05:04<br>According to Azerbaijani legislation, state streuctures are obligated to investigate corruptional casses, in order if they've been exposed in media. Law is not demanding a journalist to raise a criminal case regarding the investigation. This argument is very popular between stste officials, but it has no legal basis. Any exposed corruption facts should be investigated by state.<br>Voice over<br>05:05- 05:28<br>It's interesting if appropriate structures in Azerbaijan are ever investigating cases regarding corruption facts? How this process should be organized? What are the obligations of appropriate structures? We will try to find answers to these questions together with professionals. Khadija Ismail, a journalist who is dealing with investigations for nearly 10 years is sharing her experience.<br>Khadija Ismail Investigative journalist<br>05:29- 05:49<br>During first investigation, spokesman for Presidential Office told that President's daughter owns a business. Alright, let them have it. But, for example, he refused to answer a question about illegal privatization of the bank.<br>Intigam Aliyev human rights activist<br>05:50-06:09<br>I'm working in human rights area for 25 years now. Can't remember any case, when state would start a case based on journalist investigation and further bring culpable person or company to justice.<br>Khadija Ismail Investigative journalist<br>06:10- 06:48<br>Main reason is usually a powerful people standing behind corruption facts. There was even an investigation which clarified that deputy chief of Anti-Corruption Department was a corruptioner himself. There could be also cases, where state |

| | |
|---|---|
| | President and his family members are being suspected in corruption and as defence structures are directly obeying to President, we need to wait for power change to witness a justice being served.<br>Voice over<br>06:49-07:14<br>According to General Political Prisoners List of a Working Group for 2018, organized with public members, lawyers and journalists, there are 9 journalists under arrest due to their professional activities. About 10 journalists are on the list of those, who cannot leave the borders of Azerbaijan. Local and international defense organizations consider these actions as a result of criticizing the state by press representatives.<br>Khadija Ismail Investigative journalist<br>07:15- 07:30<br>Indeed, the state has replied with pressure towards us, instead of starting persecution regarding the investigation on corrupted officials.<br>Adil İsmailov lawyer<br>07:31- 07:37<br>"What could investigation do and what it didn't? It means, Khadija said investigation didn't do anything at all".<br>Khadija Ismail Investigative journalist<br>07:50- 08:38<br>As you know, hidden camera has been placed in my bedroom after my investigations about Panama offshore companies and Azerfon have been published. After months of filming me in the bedroom, they sent me a letter to blacmail and stop me from further activity. Also, they've spread footage which they filmed. It was a massive attack. Obviously, it was a state order. Further rejection of my compliant application and prosecutor's attempts to cover the case were another prove to this idea – state was behind it. You know, you are not afraid of any arrest or physical pain after this kind of blackmail.<br>Voice over<br>08:40- 09:07<br>Khadija Ismail was arrested in December 2014, 2 years after a camera was placed inside her apartment. She's been accused by Criminal Code for financial assignment, authority excess, illegl business activity and tax avoidance, and been sentenced to 7 years and 6 months of arrest. Declared a political prioner by "Amnesty International" organiztin, she's been released on conditional basis in May, 2016.<br>Khadija Ismail Investigative journalist<br>09:09- 09:16<br>You know, you are not afraid of any arrest or physical pain after this kind of blackmail.<br>Intigam Aliyev human rights activist<br>09:17- 10:09 |

Unfortunately, courts also are a composite part of the corruption system. Courts are being used to defuse political opponents, journalists investigating corruption facts, civil society representatives and politicians. Many corruptional facts have been floated up during last times court processes, in particular at Jahangir Hajiyevs court. Hajiyev himself revealed several times, that there are other people involved to the case, but court is dealing only with him. His message was about people who were money-laundrying with him. It meant he was only an executor, while some high-ranked people got the main benefit. No investigation has ever been held about it.

Voice over

10:10- 10:36

Jahangir Hajiyev has started working at International Bank of Azerbaijan from 1995. During 2001-2015 he's been a chairman of the bank. In October 2016 he's been detained for 15 years due to accusations in financial assignment by organizing a group and authority excess.

Jahangir Hajiyev ex- chairman of IBA

10:37-11:03

I've been abroad when investigation on International Bank has started. But I came back with 1 phone call to cooperate with investigation team. We worked on investigation and showed where criminal happened. If you are not further investigating and saying that we are not related to the case, it's wrong. Samir Sharifov took 350 millions only from "Azerinshaat" amount. Isn't it a crime? Why not? Why didn't you bring Bulent Kara to investigate this case? Maybe someone is inviolable today, but you don't know what tomorrow will bring. There is not even half of the fact proving my guilt in appropriation.

Fariz Namazlı lawyer

11:04-11:45

The court is obligated to investigate any criminal fact if any information is been given during hearing. In case if any other people, here we mean people not related to the ongoing court process, are participated in any criminal or suspected to be a part of it, the court needs to make a decision about investigating these facts and send it to General Prosecution. After that, The Prosecutor General's Office must investigate these issues and give a legal assessment through the prosecutorial offices subordinated.

Voice over

11:48-12:07

It is interesting that in the last 5 years how many ruling or decisions have been made in the courts of Azerbaijan regarding corruption allegations and sent to relevant agencies for investigation? But have any answers related to the results of these notifications been ever given to the courts? The Ministry of Justice the Azerbaijan Republic reports in its response to our inquiry reflecting the questions in this direction:

Voice over

12:09- 12:20

According to the article 21.2.5 of the law “On access to information” the information holder may refuse to execute the request if the execute of the inquiry demands for the systematization, analysis or documentation of the information.

Intigam Aliyev  human rights activist

12:21-13:21

There are plenty of examples. Last cases with Brasil, Israel, India, or even arrest of South Korean president. Why is this not happening in Azerbaijan? Because these countries have power separation, independent media, independent civil society, independent parliament, political parties. All these structures are raising corruption facts, illuminating and make them open to public. There are institutions which can affect a public opinion. Existing of these institutions are lowering corruptional cases and can make criminals answer for their crimes. Our government have successfully exterminated them in Azerbaijan. That is why appropriate structures have no courage to demand justice.

Voice over

13:23-13:54

Court chairman has not reacted to words of Jahangir Hajiyev about Ministry of Finance of Azerbaijan Samir Sharifov. A spokesman for the Ministry declared none of the facts given by detained Hajiyev were essential and related to the case, only were made to attract attention to court process and try to set it political. Jahangir Hajiyev’s sister Amina Hajiyeva says that her brother has been a victim of Samir Sharifov’s game and new accusations against him are being prepared. Also, she declares a pressure against herself is also present.

Amina Hajiyeva Jahangir Hajiyev’s sister

13:55-14:30

Our mother has died 3 years ago. We agree half of the property belongs to Jahangir. Half is mine. I’m an inheritor of my mother. I could not get it till now, why? I  also cannot leave Azerbaijan for 3 years now. Of course, I would never leave Jahangir here and move. But, why to stop me from leaving the country borders?

Intigam Aliyev  human rights activist

14:31-15:04

Azerbaijan has joined many conventions. Also, it has joined to documents of European Council regarding corruption. Azerbaijan has ratified those documents and gives reports regarding them. As a lawyer and civil society, we came to conclusion based on our investigations, that the state will execute its obligations on international conventions the same way as it fights corruption inside of the country. It means the state is not executing taken obligations.

Voice over

15:05-15:15

As we got no reply from the General Prosecutor’s Office and Anti-Corruption Department of Azerbaijan it’s not possible to know their position at the moment.

Voice over

| | |
|---|---|
| | 15:26-15:37<br><br>Khadija Ismail, whose name is on the list of journalists that cannot leave Azerbaijani borders says, that her investigative activity is continuing, despite the illegal arrest of her bank account and constant chasing by authorities.<br><br>Khadija Ismail Investigative journalist<br><br>15:38- 16:07<br><br>We are not fighting to change power in the country. I don't have any plan or idea of this kind, I'm doing it because it's a shame not to do it. If you re silent about offense, you are becoming a part of it. I don't want to be a part of it and I don't want to share it by keeping silence.<br><br>Intigam Aliyev human rights activist<br><br>16:11-16:25<br><br>It's wrong to tell that any nation is inclined to bribes, including our nation. As you see, with creating "Asan Xidmet" system and normal environment people are not being asked for bribe and not paying it either.<br><br>16:32- 17:30<br><br>Elshan Aliyev brigadier<br><br>Our handwork starts from here. See, this place is called Shanghai. We made all the work here. Almost every day for 2 years we went to the "Azimport" company. There is Akhundov park nearby Azimport office building. We were meeting there every day. Sometimes it was raining. Then we were going to the nearest cafe. We were buying one teapot for 20-30 people just to keep ourselves dry from rain and wait till they call us. We were fighting hard to get our money and we succeed. You cannot violate worker's rights. You have to pay on time to encourage him to work hard and you get a nice result. You know how it happens when you call the same worker tomorrow he is willingly back to work with you again. |
| | |
| **SHOTLIST:** | Shots of Baku Olympic Stadium<br><br>Interviews with the workers during their rally<br><br>Shots of workers rally<br><br>Interviews of brigadier Elshan Aliyev<br><br>Shots of buildings of official bodies<br><br>İnterview of Intigam Aliyev<br><br>İnterview of Khadija Ismail<br><br>Shots of Jahangir Hajiyev<br><br>Interview of Fariz Namazli<br><br>Interview of Jahangir Hajiyev's sister<br><br>Shots of the houses repaired by the workers |

| | |
|---|---|
| **SCRIPT:**<br>(Original language) | Fəhlə<br><br>00:15- 00:22<br><br>Biz də istəyərik ki, ölkəmizi dünyada tanısınlar. Amma biz acıqsa, bizi necə yaxşı ölkə kimi tanıya bilərlər? Ölkəmizdə özümüzü boğurlar. İmkan vermirlər bizə yaşamağa. Dinc əhalini boğurlar. Bəzi vəzifədə oturmuş üzdəniraqlar bizi boğurlar. Başımızdan basırlar. İmkan vermirlər yaşamağa. Acından öldürürlər bizi.<br><br>Fəhlə<br><br>00:23-00:29<br><br>Şirkətin sahibi Azər Əsgərov və Raqif Qasımov bizə deyir ki, sizin pullar Avropa Oyunlarına gedib.<br><br>Fəhlə<br><br>00:39- 01:05<br><br>Bunların səbəbi budur ki, bütün pulları yeyiblər. Bu boyda millətin cəmi 300-400 min alacağı var. Mən özüm gedib, Qarabağda can qoymuşam. Bax, çək, gördün? Gedib, qolumu qoymuşam, canımı qoymuşam. Səbəb nədir ki, bizim haqqımızı vermirlər? Biz fəhlə adamıq. Fəhlə.<br><br>Kadrarxası mətn<br><br>01:08- 01:34<br><br>Görüntülər 2015-ci ildəndir. Həmin il Azərbaycanda böyük bir idman yarışı –Birinci Avropa Oyunları keçirilirdi. Ölkə rəsmiləri bu oyunların "əməliyyat xərcləri" üçün 2015-ci ilin dövlət büdcəsindən 1 milyard manat ayrıldığını desələr də, mətbuatın yazdığına görə, bu rəqəm 5 milyard manata yaxın olub. Həmin vaxt mediada gedən məlumatda deyilir ki, təkcə dünya şöhrətli ulduz Lady Gaganın Avropa Oyunlarının açılış mərasimindəki çıxışına Azərbaycan 2 milyon dollar xərcləyib.<br><br>Kadrarxası mətn<br><br>01:45-02:04<br><br>Beləliklə, 2015-ci ilin iyununda Azərbaycan Avropa Oyunlarına ev sahibliyi edən ilk ölkə kimi adını tarixə yazdırdı. Amma həmin ərəfədə Azərbaycan paytaxtında başqa mühüm olaylar da yaşanırdı. Avropa Oyunları üçün abadlıq işləri aparan fəhlələr Bakının mərkəzində mitinq keçirərək ala bilmədikləri əmək haqlarını tələb edirdilər.<br><br>Fəhlə<br><br>02:05-02:11<br><br>Bax, ağsaqqal kişidir. Neçə aydır bu kişi çöllərdə dayanır. Qardaş, bu kişini çək, 56 min alacağı var.<br><br>Elşən Əliyev briqadir<br><br>02:12 -02:23 -02:30-02:41<br><br>Avropa Oyunları vaxtı 2015-ci ildə bizi abadlıq işlərinə çağırdılar. Sonra şəxsiyyət vəsiqələrimizi yığdılar ki, nə bilim, müqavilə bağlayacaqlar. Nə bilim, pulda problem |

olmayacaq, biz də başladıq işləməyə. Bizə 3 ay vaxtı verilmişdi. 1 ay, 18 gün ərzində biz buranı qurtardıq. Demək olar ki, 2 ay qabaq. Amma pulumuzda incitdilər bizi.

Kadrarxası mətn

02:42- 03:20

Elşən Əliyev Avropa Oyunlarına hazırlıq mərhələsində işini görüb, həmin vaxt pulunu ala bilməyən 540 nəfər işçinin briqidari olub. O, Bayılın el arasında "Şanxay" adlanan ərazisinin abadlaşdırma işlərini görmək üçün "Azimport" şirkətindən, "Azimport" şirkəti isə öz növbəsində Azərbaycan Dövlət Neft Şirkətindən sifariş alıb. Hər iki şirkətin sözçüsü həmin vaxt jurnalistlərin sorğularına cavablarında fəhlələrin maaşlarının ödənməməsi ilə bağlı bir-birini ittiham etmişdi. 2016-cı ildə Azərbaycanın Meydan Tv internet televiziyasında yayımlanan araşdırmada Azimport şirkətinin təsisçisi Azər Əsgərov SOCAR-la son 10 ildə 700 layihə işlədiklərini etiraf edir.

Azər Əsgərov "Azimport"un təsisçisi

03:21- 03:28

Biz SOCARla 10 il ərzində 700, 700-yə yaxın layihə işləmişik. Hamısını da uğurla təhsvil vermişik.

Elşən Əliyev briqadir

03:29- 03:48

Biz buradakı işləri görüb, qurtarandan sonra cənab prezident də, Mehriban xanım da gəlib, bura baxdılar. Televizorda göstərmişdilər. Biz özümüz də baxıb, sevindik ki, işimizi bəyəndilər, xaricilər də gəlib, baxıb, görəcək ki, şəhərimiz gözəlləşir. Daha şəhərimiz gözəlləşir deyə, biz acından ölək?

Kadrarxası mətn

03:49-04:27

Şirkət haqqındakı sözügedən araşdırmadan bəlli olur ki, Azərbaycan Respublikasının o dövrki Dövlət Satınalmalar Agentliyinin 2010-2015-ci illər üçün müsabiqə əsasında keçirilən satınalmalara dair rəsmi məlumatında "Azimport"un Bayılın məlum ərazisindəki abadlıq işlərini görməsi və ya ümumiyyətlə, SOCAR-ın hər hansı bir tenderinin qalibi olması ilə bağlı sənəd mövcud deyil. Araşdırmadan o da aydın olur ki, əslində, "Azimport" şirkətinin qeyri-rəsmi sahiblərindən biri Azərbaycan prezidentinin iqtisadi məsələlər üzrə köməkçisi Əli Əsədovdur. Bu araşdırma yayımlandıqdan sonra materialda yer alan faktlarla ilə bağlı Azərbaycanın müvafiq qurumları tərəfindən hər hansı bir araşdırma aparılmayıb. Ən azı ictimaiyyətə bununla bağlı məlumat verilməyib:

İntiqam Əliyev hüquq müdafiəçisi

04:28-05:04

Azəbaycan qanunvericiliyinə görə, mediada korrupsiya faktları ilə bağlı gedən yazılarla bağlı dövlət orqanlarının araşdırma aparmaq öhdəliyi var. Qanunvericilik tələb qoymur ki, jurnalistin araşdırmasında, yazısında, məqaləsində, müsahibəsində göstərdiyi hansısa bir faktlarla bağlı cinayət işinin qaldırılması barədə müraciət etməlidir. Çünki bu arqumenti hökumət nümayəndələri tez-tez səsləndirirlər, əsassız arqumentdir. Faktlar barədə məlumat gedirsə, cinayət işi qaldırmaq dövlətin üzərindədir.

| | |
|---|---|
| | Kadrarxası mətn<br>05:05- 05:28<br>Maraqlıdır, Azərbaycanda jurnlalist araşdırmalarında ortaya çıxan korrupsiya faktları və ya ölkə məhkəmələrində qaldırılan korrupsiya iddiaları ilə bağlı aidiyyatı qurumlar araşdırma aparırmı? Ümumiyyətlə, bu proses necə həyata keçirilməlidir? Belə hallarda müvafiq qurumların öhdəlikləri nədir? Bu suallara mütəxəssislərlə birlikdə cavab tapmağa çalışacağıq. 10 ilə yaxındır ki, mütəmadi olaraq jurnalist araşdırmaları aparan Xədicə İsmayıl öz təcrübəsini bölüşür:<br>Xədicə İsmayıl araşdırmaçı jurnalist<br>05:29- 05:49<br>İlk araşdırmada Prezident Aparatının sözçüsü dedi ki, prezidentin qızının biznesi var, lap yaxşı, qoy, olsun. Amma digər suallara, məsələn, bankı qeyri-qanuni özəlləşdirmək kimi mövzulardakı suallara, ümumiyyətlə, cavab vermədi. Və sonrakı araşdırmalarda da, ümumiyyətlə, cavab vermirdilər.<br>İntiqam Əliyev hüquq müdafiəçisi<br>05:50-06:09<br>Artıq 25 ildir hüquq-müdafiə fəaliyyəti ilə məşğulam. Xatırlamıram ki, hansısa bir jurnalistin araşdırması ilə bağlı dövlət tərəfindən araşdırılma aparılsın və dövlət həm jurnalistə, həm onun təmsil etdiyi quruma, həm də ictimayyətə məlumat versin ki, bu araşdırmaların yekunu olaraq, kimsə cinayət məsuliyyətinə cəlb edilib.<br>Xədicə İsmayıl araşdırmaçı jurnalist<br>06:10- 06:48<br>Səbəb odur ki, əslində, korrupsiya faklarının arxasında həmişə çox güclü adamlar dayanır. Bəzən hətta araşdırmalardan biri onu da üzə çıxarmışdı ki, Korrpusiyaya Qarşı Mübarizə İdarəsinin rəis müavinin özü korrupsioner idi. Və yaxud da ki, ölkə prezidenti və onun ailəsinin korrupsiya əməllərində günahlandırılırsa və ölkədə müstəqil ədliyyə sistemi yoxdursa, hüquq mühafizə orqanları birbaşa prezidentin tabelçiliyindədirlərsə, onda biz korrupsiya əməllərinin araşdırılmasını siyasi hakimiyyətin dəyişməsindən sonra gözləməyə məcburuq.<br>Kadrarxası mətn<br>06:49-07:14<br>Ölkədə vətəndaş cəmiyyəti nümayəndələri, hüquqşünaslar və jurnalistlərdən ibarət İşçi Qrupun 2018-ci ilin sentyabr ayı üçün yaydığı Vahid Siyasi Məhbus Siyahısına əsasən, hazırda Azərbaycanda 9 jurnalist peşə fəaliyyəti ilə bağlı həbsdədir. Mətbuatın yazdığına görə, 10 –a yaxın jurnalistin ölkədən çıxışına qadağa qoyulub. Yerli və beynəlxalq hüquq müdafiə təşkilatları hesab edir ki, bütün bunlar jurnalistlərin Azərbaycan hökumətini tənqid etdiklərinə görədir.<br>Xədicə İsmayıl araşdırmaçı jurnalist<br>07:15- 07:30<br>Əslində, araşdırmalarımızın cavabı korrupsioner məmurlar haqında cinayət təqibi başlamaq olmalı olduğu halda, cavab olaraq, biz özümüzə qarşı təzyiqlər gördük. |

| | |
|---|---|
| | Adil İsmayılov vəkil<br>07:31- 07:37<br>İstintaq nə edə bilərdi və nəyi etməyib? Yəni, Xədicə xanım dedi, mən hesab edirəm ki, istintaq, ümumiyyətlə, heç nə etməyib.<br>Xədicə İsmayıl araşdırmaçı jurnalist<br>07:50- 08:38<br>Panama şirkətləri ilə, Azərfonla bağlı araşdırmamın çıxmasından bir neçə gün sonra yaşadığım evin yataq otağına kamera yerləşdirmişdilər. Və bir neçə ay məni izləyəndən sonra növbəti araşdırmaların üzərində işlədiyim vaxtda mənə şantaj məktubu göndərmişdilər. Sonra da mən geri çəkilmədiyim üçün həmin çəkdikləri videoları yaymışdılar. Bu, çox ciddi zərbə idi. Bu, birbaşa dövlət qurumlarının etdiyi işdir. Bu, fakt olaraq, məlum idi. Və sonra da mənim bu faktla bağlı verdiyim şikayətin araşdırılmaması, prokurorluğun bu məsələni ört-basıdr etməyə çalışması açıq-aşkar göstərdi ki, bu, hökumətin işi idi.<br>Kadrarxası mətn<br>08:40- 09:07<br>Evinə kamera yerləşdirilməsi olayından 2 il sonra - 2014-cü ilin dekabrında Xədicə İsmayıl həbs olunur. O, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin mənimsəmə və israf etmə - külli miqdarda törədildikdə, vəzifə səlahiyyətlərindən sui-istifadə, qanunsuz sahibkarlıq və vergi ödəməkdən yayınma maddələri ilə 7 il 6 ay müddətinə azadlıqdan məhrum edilir. Amnesty İnternational təşkilatı tərəfindən "vicdan məhbusu" elan olunan jurnalist 2016-cı ilin mayında şərti azad edilir.<br>Xədicə İsmayıl araşdırmaçı jurnalist<br>09:09- 09:16<br>O şantajdan sonra həbs, nə bilim, fiziki işgəncə, belə şeylərə adama çox yüngül bir şey kimi gəlir.<br>İntiqam Əliyev hüquq müdafiəçisi<br>09:17- 10:09<br>Təəssüf ki, məhkəmələr də o korrupsiya sisteminin tərkib hissəsidir. Məhkəmələrdən də siyasi oppenentləri, korruspiya faktları barədə araşdırmaları təqdim edən jurnalistləri, vətəndaş cəmiyyəti təmsilçilərini, siyasiləri zərərsizləşdirmək üçün istifadə olunur. Ümumiyyətlə, məhkəmə proseslərində, xüsusi ilə son dövrlərin qalmaqallı məhkəmə proseslərində, o cümlədən, Cahangir Hacıyevin məhkəməsində çoxlu sayda korrupsiya ilə bağlı məlumatlar üzə çıxdı. Yəni, Cahangir Hacıyev çıxışlarında dəfələrlə vurğulayırdı ki, siz yalnız məndən yapışmısınız, amma bu prosesdə iştirak edən başqa adamlar da var. Yəni, mesajı bu idi ki, təkcə pulu mən yeməmişəm də. Yəni, mənə göstəriş verirdilər, mən də icra edirdim və o pulu daha böyük adamlar yeyiblər. Bununla da bağlı heç bir araşdırma aparılmayıb.<br>Kadrarxası mətn<br>10:10- 10:36<br>Cahangir Hacıyev 1995-ci ildən Azərbaycan Beynəlxalq Bankında işləməyə başlayıb. 2001-2015-ci ilə qədər isə bankın sədri vəzifəsində çalışıb. 2016-cı ilin oktyabr ayında |

o, Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Cinayət Məcəlləsinin mütəşəkkil dəstə tərəfindən külli miqdarda mənimsəmə və vəzifə səlahiyyətlərini aşma ağır nəticələrə səbəb olduqda ittihamları ilə 15 il müddətinə azadlıqdan məhrum edilib.

Cahangir Hacıyev Azərbaycan Beynəlxalq Bankının keçmiş sədri

10:37-11:03

Beynəlxalq Bank işi üzrə istintaq başlananda, mən xaricdə olmuşam. Amma bir zənglə ölkəyə qayıdıb, kreditlərin qaytarılmasından ötrü istintaqla əməkdaşlıq etmişəm. Biz həm istintaqla əməkdaşlıq etdik, həm də cinayətin harada olduğunu göstərdik. Məsələn, siz araşdırmadınız. İndi deyəcəksiniz ki, bu məsələnin sənə aidiyyəti yoxdur, amma birbaşa aidiyyəti var. Samir Şərifov təkcə«Azərinşaat»a ayrılan vəsaitdən 350 milyon götürüb. Buna «cinayət» deyilmir. Niyə? Bu işi araşdırmaq üçün niyə Bülent Kara-nı gətirmədiniz? Ola bilsin ki, bu gün kimsə toxunulmazdır. Amma sabahı bilmək olmaz. Bu cinayət işində mənim mənimsəməyə yol verdiyimi sübut edən heç yarım fakt da yoxdur.

Fariz Namazlı vəkil

11:04-11:45

Əgər proses iştirakçıları olmayan başqa şəxslərlə bağlı, məsələn, məhkəmədə iştirak edən bir şahidin hərəkətlərindəki hər hansısa korrupsiya halları ilə bağlı məhkəməyə şikayətlər olarsa və ya bununla bağlı məlumatlar məhkəmənin diqqətinə çatdırılarsa, məhkəmə özü bu halları araşdıra bilməz. Çünki o, məhkəməyə verilmiş ittiham çərçivəsində işə baxmalıdır. Bu halda, məhkəmə xüsusi qərar çıxarıb, həmin şəxsin əməllərində cinayət tərkibinin olub-olmamasını yoxlamaq məqsədi ilə işi Baş Prokurorluğa göndərməlidir. Bundan sonra isə Baş Prokurorluq tabelliyində olan prokurorluqlar vasitəsi ilə həmin məsələləri araşdırıb, hüquqi qiymət verməlidir.

Kadrarxası mətn

11:48-12:07

Görəsən, son 5 ildə Azərbaycan məhkəmələrində korrupsiya iddiaları ilə bağlı neçə xüsusi qərardad və ya qərar çıxarılıb və araşdırılması üçün üçün müvafiq qurumlara göndərilib? Bəs bu göndərişlərin nəticələri ilə bağlı məhkəmələrə cavab verilibmi? Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi bu yöndəki sualları əks etdirən sorğumuza cavabında bildirir:

Kadrarxası mətn

12:09- 12:20

“İnformasiya əldə etmək haqqında" Qanunun 21.2.5-ci maddəsinə əsasən, sorğunun icrası informasiyanın sistemləşdirilməsini, təhlil olunmasını və ya sənədləşdirilməsini tələb etdiyi zaman informasiya sahibi sorğunun icrasından imtina edə bilər.

İntiqam Əliyev hüquq müdafiəçisi

12:21-13:21

Çoxlu nümunələr gətirmək olar. Elə son dövrlərdə Braziliya, İsrail, tutaq ki, Hindistan, Pakistanla bağlı. Və ya Cənubi Koreyanın prezidenti həbs olundu. Nəyə görə o ölkələrdə bu bu baş verir, bizdə baş vermir? Çünki həmin ölkələrdə hakimiyyətin bölgüsü, müstəqil media, müstəqil vətəndaş cəmiyyəti, müstəqil parlament, siyasi partiyalar var. Hansı ki, bu qurumlar korrupsiya faktlarını qaldırırlar, işıqlandırırlar,

| | |
|---|---|
| | ictimai rəyə yönəldirlər. İctimai rəyə təsir edən isntitutlar var. O institutların mövcudluğu bütövlükdə ona gətirib çıxarır ki, korrupsiyaya yol vermiş adamlar məsuliyyətə cəlb olunurlar. Bizim ölkələrdə bunların hamısını hakimiyyət sıradan çıxarıb. Ona görə korrupsiya faktları ilə bağlı qərar verməli olan, cinayət məsuliyyətinə cəlb etməli olan adamların bunu etməyə cəsarəti yoxdur. Bununla bağlıdır.<br><br>Kadrarxası mətn<br><br>13:23-13:54<br><br>Cahangir Hacıyevin məhkəmə çıxışında Azərbaycanın maliyyə naziri Samir Şərifovla bağlı dediklərinə məhkəmə sədri tərəfindən hər hansı bir reaksiya verilməmişdi. Məlum nazirliyin sözçüsü isə ittihamların həqiqəti əks etdirmədiyini və Hacıyevin bununla törətdiyi əməlləri siyasiləşdirmək, ictimaiyyətin diqqətini mühakiməyə aidiyyəti olmayan məsələlərə yönəltmək məqsədi daşıdığını açıqlamışdı. Buna baxmayaraq, Cahangir Hacıyevin bacısı Əminə Hacıyeva bildirir ki, qardaşı Samir Şərifovun qərəzinin qurbanı olub və ona qarşı yeni ittihamlar hazırlanır. Hacıyevanın sözlərinə görə, hətta onun özünə qarşı da təzyiqlər var:<br><br>Əminə Hacıyeva Cahangir Hacıyevin bacısı<br><br>13:55-14:30<br><br>Anamız 3 ildir ki, rəhmətə gedib. Yaxşı, yarı pay Cahangirindir. Yarı pay mənimkidir. Mən anamın varisiyəm, düzdür? Mən indiyə kimi o vərəsəliyi ala bilmirəm. Nəyə görə mən 3 ildir ölkədən çıxa bilmirəm? Düzdür, mən heç vaxt Cahangiri burda qoyub, heç yerə getmərəm. Amma nəyə görə siz mənim ölkədən çıxışıma qadağa qoymusunuz?<br><br>İntiqam Əliyev hüquq müdafiəçisi<br><br>14:31-15:04<br><br>Azərbaycan çoxlu sayda konvensiyalara qoşulub. Eyni zamanda Avropa Şurasının korrupsiya ilə bağlı sənədlərinə qoşulub. Azərbaycan həmin sənədləri ratifikasiya edib, hesabatlar verir. Amma bir hüquqçu kimi, vətəndaş cəmiyyəti olaraq, araşdırmalarımızın nəticəsindın bu qənaətə gəlmişik ki, realda hökumət ölkədaxilində korrupsiya ilə necə mübarizə aparırsa, eyni ilə beynəlxalq konvensiyalarla bağlı üzərinə götürdüyü öhdəlikləri də o şəkildə icra edir. Yəni, hökumət üzərinə götürdüyü öhdəlikləri icra etmir.<br><br>Kadrarxası mətn<br><br>15:05-15:15<br><br>Azərbaycan Respublikasının Baş Prokurorluğu və Korrupsiyaya Qarşı Mübarizə İdarəsinə göndərilən jurnalist sorğusuna cavab verilmədiyindən, mövzu ilə bağlı onların mövqeyini yayımlamaq mümkün olmayıb.<br><br>Kadrarxası mətn<br><br>15:26-15:37<br><br>Hazırda ölkədən çıxışına və bank hesabına qanunsuz qadağa qoyulduğunu və hökumət tərəfindən hələ də izləndiyini deyən Xədicə İsmayıl hər şeyə rəğmən araşdırmalarına davam etdiyini söyləyir:<br><br>Xədicə İsmayıl araşdırmaçı jurnalist |

| | |
|---|---|
| | 15:38- 16:07<br>Biz bunu ona görə etmirik ki, biz gözləyirik ki, ölkədə hakimiyyəti dəyişəcəyik. Mənim heç bir belə iddiam, planım, və.s. yoxdur. Mən bunu ona görə edirəm ki, bunu etməmək ayıbdır. Yəni, sən baş verən bu qanunsuzluqlara susanda, onun parçasına çevrilirsən. Və mən bunun parçası olmaq istəmirəm. Mən sükutumla cinayətə şərik olmaq istəmirəm.<br>İntiqam Əliyev hüquq müdafiəçisi<br>16:11-16:25<br>Azərbaycanlılar qanlarında rüşvət axan, rüşvətə meyilli bir millətdir" demək, çox nadan bir yanaşmadır. Çünki adicə Asan Xidmətin yaradılması göstərdi ki, sən normal mühit yaradanda, rüşvət istəməyəndə, adamlar güclə kiməsə rüşvət vermək istəmir.<br>Elşən Əliyev briqadir<br>16:32-17:30<br>Bizim əl işlərimiz buradan başlayır. Baxın, ora Şanxay ərazisidir. Buraların hamısını biz etmişik. Demək olar ki, 2 il hər gün get-gəl, get-gəl. Hər gün, hər gün "Azimport"un yanında- "Axundov Bağı" var- yığışırdıq ora. Elə vaxt olurdu ki, yağış yağırdı. Yaxınlıqdakı kafeyə girib, 20-30 nəfərə bir çaynik çayı qarşımızı qoyurduq ki, yağış bizi islatmasın, gözləyək, görək, nə vaxt bizi çağıracaqlar? |
| | |
| **CAMERA OPERATOR:** | Kamal Aliyev |
| **VIDEO EDITOR:** | Elman Asgerov |
| **MUSIC RIGHTS:**<br>(If applicable) | n/a |